BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Sosial-siyasi elmlər seriyası 2012*

**UOT 338.242.4**

# AZƏRBAYCANDA İQTİSADİ ARTIM SİYASƏTİ VƏ MAKROİQTİSADİ PROPORSİYALARIN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ

**A.H.HACIYEV**
***AMEA İqtisadiyyat İnstitutu***
***a.h.haciyev@gmail.com***

*Məqalədə Azərbaycanda son 15 il ərzində reallaşdırılan iqtisadi artım siyasəti ölkədə istehsal olunmuş Ümumdaxili Məhsulun (ÜDM) sahə və istehlak strukturları üzrə dəyişikliklərdə formalaşmış meyllər əsasında təhlil edilir. Əldə olunmuş nəticələr göstərir ki, hazırda Azərbaycanda istifadə olunan daxili tələbin genişlənməsinin stimullaşdırılmasına əsaslanan tələb iqtisadiyyatı modeli yenisi ilə-təklif iqtisadiyyatı modeli ilə əvəzlənməlidir.*

**Açar sözlər:** iqtisadi artım, ÜDM-in sahə strukturu, ÜDM-in istehlak strukturu, gəlirlərin formalaşması, gəlirlərin bölgüsü

Dünya ölkələrinin inkişaf təcrübəsi göstərir ki, istənilən ölkə üzrə iqtisadi artım proseslərində yüksək səmərəlilik təmin olunmadan onun inkişaf etmiş ölkələr sırasına daxil olması, dayanıqlı maliyyə sisteminə malik olması, ölkənin milli valyutasının yüksək dönərlik səviyyəsinin və müvafiq olaraq, dünya iqtisadiyyatına səmərəli inteqrasiyasının təmin olunması mümkün deyil. Azərbaycanın inkişaf səviyyəsi yüksək olan ölkələrlə müqayisədə əhəmiyyətli dərəcədə geriliyinin aradan qaldırılması üçün iqtisadi artımda yüksək səmərəliliyin təmin olunması, başqa sözlə, ölkənin, dünyanın qabaqcıl iqtisadiyyatları səviyyəsində fəaliyyət göstərə biləcək iqtisadiyyata malik ola bilməsi, cəmiyyətin müxtəlif təbəqələrini - ziyalılarını, biznes nümayəndələrini və digər təbəqələrini birləşdirə biləcək milli ideya ola bilər.

Hal-hazırda Azərbaycanda iqtisadi artım proseslərinin səmərəliliyinin yüksəldilməsi sahəsində həlli tələb olunan əsas məsələlərdən biri də ölkədə iqtisadi artım siyasəti və makroiqtisadi səviyyədə formalaşan proporsiyaların təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsidir. Məqalədə ölkədə istehsal olunmuş Ümumdaxili Məhsulun (ÜDM) artım sürəti, onun sahə və istehlak strukturu, gəlirlərin formalaşması və bölgüsü strukturlarında illər üzrə baş vermiş dəyişikliklər bu baxımdan təhlil edilir və qiymətləndirilir.

**Qısa və ortamüddətli perspektivdə iqtisadi tənzimləmənin hədəfləri.** Hər bir ölkədə makroiqtisadi tənzimləmənin konkret hədəfləri müəyyənləşdirilən zaman iqtisadiyyatda yaranmış vəziyyət başlıca əhəmiyyət kəsb edir: ***qısamüddətli_dövr*** hədəfləri sırasına, bir qayda olaraq, ya tam məşğulluğun (daha dəqiq, təbii işsizlik səviyyəsində olan məşğulluğun), ya da qiymətlərin sabitliyinin təmin olunması; ***ortamüddətli perspektivə*** isə, ölkədə stabil iqtisadi artımın təmin olunması aid edilir. İqtisadi nəzəriyyədə tam məşğulluq ilə qiymətlərin sabitliyinin təmin olunması fərqli hədəflər kimi müəyyənləşdirilir. Məsələn:

- əgər makroiqtisadi tənzimləmə Keyns nəzəriyyəsi yanaşmaları baxımından təhlil olunarsa, bu zaman, nəzəri olaraq, dövlət, səmərəli tələbin elə səviyyəsini təmin edə bilər ki, iqtisadiyyatda tam məşğulluq təmin olunsun. Lakin iqtisadiyyatda tam məşğulluğun bu yanaşma əsasında təmin olunması nominal əmək haqqının əmək məhsuldarlığına nisbətdə üstün artım templərini və məsrəf inflyasiyasının sürətlənməsini müəyyənləşdirdiyindən, səmərəli tələbin formalaşması qiymətlərin sabitliyinin təmin olunmasını mümkün etmir;
- əgər makroiqtisadi tənzimləmə monetarist yanaşmalar çərçivəsində qiymətlərin sabitliyinin təmin olunmasına istiqamətlənibsə, bu halda iqtisadiyyatda təbii işsizlik səviyyəsində məşğulluğun təmin olunması mümkün olmur və s.

İstənilən halda, qiymətlərin sabitliyinin və tam məşğulluğun təmin olunması makroiqtisadi stabilləşdirmənin qısamüddətli dövrünü əhatə edən hədəflərdir. Bu hədəflərə nail olunması üçün iqtisadi tənzimləmənin alətləri kimi daxili kreditlərin səviyyəsi, faiz və vergi dərəcələri, dövlət xərclərinin ümumi səviyyəsi, milli valyutanın nominal mübadilə məzənnəsi və s. istifadə edilir.

Stabil iqtisadi artım və iqtisadi inkişafın digər ümumi məsələlərinin təmin olunması isə uzunmüddətli hədəflərdir və bu hədəflərin əldə olunması iqtisadiyyatda struktur dəyişikliklərinin həyata keçirilməsi ilə bağlıdır. Bu cür məqsədləri təmin edə biləcək makroiqtisadi alətlər stabilləşdirmə məsələlərinin həlli ilə bağlı istifadə olunan makroiqtisadi alətlərdən fərqlənir. Bu sıraya dövlət investisiyalarının həcmi və strukturu üzrə qərarlar, maliyyə sisteminin tənzimlənməsi ilə bağlı qərarlar (vergilərin strukturu, respublika və yerli xarakterli vergilərin nisbəti və s.), yerli məhsulların qiymət və rəqabət qabiliyyətliliyini müəyyənləşdirən birbaşa təsirlər, xarici ticarət və valyuta rejimləri səviyyələrindəki dəyişikliklər və s. aiddir.

Beləliklə, makroiqtisadi siyasətin formalaşdırılması zamanı, bir tərəfdən, qısamüddətli dövrdə makroiqtisadi tarazlığı təmin edən məsələlər, digər tərəfdən isə, ortamüddətli dövrə makroiqtisadi tarazlığın qorunmasını təmin edən məsələlər fərqlənir. Bu məsələlər təkcə baxılan dövrün uzunluğu ilə deyil, həm də onların həllində istifadə olunan mexanizm və alətlərin mahiyyəti üzrə də fərqlənir. Eyni zamanda iqtisadi artımın ortamüddətli və qısamüddətli dövrə stabilləşdirmə məsələləri qarşılıqlı əlaqədə olan məsələlərdir. Çünki ortamüddətli dövrə əhalidən əmanətlərin cəlb olunması, xarici investisiyaların

tətbiq sferalarının müəyyənləşdirilməsi, xarici ticarət imkanlarının genişlənməsi və s., cari, qısamüddətli dövrdə faiz dərəcəsi, inflyasiyanın səviyyəsi, daxili kreditlərin strukturu, büdcə-vergi və valyuta siyasətləri rejimlərinin tənzimlənməsi ilə müəyyənləşir.

**Azərbaycanda iqtisadi artım və makroiqtisadi proporsiyalar.** Son 15 ildə ölkədə iqtisadi artımı müəyyənləşdirən amillər və reallaşdırılan stabilləşdirmə siyasətinin mahiyyəti baxımından bir neçə dövr fərqlənir. Makrosəviyyədə bu fərqlər özünü ÜDM-in sahə strukturu, gəlirlərin formalaşması və bölüşdürülməsi üzrə proporsiyalarda dolğun əks etdirir.

Məlumdur ki, Azərbaycanda iqtisadi artımın bərpası 1996-cı ilin ikinci yarısından etibarən başlanmış və bu artım, ölkə iqtisadiyyatına beynəlxalq neft müqavilələri üzrə yatırılan birbaşa investisiyalarla bağlı olmuşdur [1; 2]. Məhz bu investisiyaların nəticəsi olaraq, iqtisadiyyatın sahə strukturunda, 1996-1999-cu illər, əvvəlcə, tikinti sektorunun payının sürətli artımı, prosesin davamı və investisiyaların multiplikasiya effektinin nəticəsi olaraq isə, iqtisadiyyatda daxili tələbin səviyyəsi və strukturunda əsaslı dəyişikliklər müəyyənləşmişdir. Belə ki, bu illərdə, son istehlak xərcləri ÜDM-in strukturunda, orta hesabla, 90%-dən yuxarı pay çəkisinə (91,2%); ümumi yığım isə - 30% pay çəkisinə malik olmuşdur. Təbii ki, daxili tələbin ÜDM-də göstərilən yüksək pay çəkisi xalis ixracın mənfi qiyməti, ölkədə idxalın əhəmiyyətli dərəcədə ixracı üstələməsi ilə bağlı idi *(şək)*.

1996-1999-cu illər Azərbaycanda stabilləşdirmə siyasəti, inflyasiyanın əvvəlki illərdə mövcud olmuş yüksək səviyyəsinin dəf olunması məqsədilə, monetarist konsepsiyanın tələblərinə müvafiq olaraq, daxili tələbin və ilk növbədə, istehlak tələbatının artım sürətinin məhdudlaşdırılması istiqamətində reallaşdırıldığından, bu illər Azərbaycanda makrosəviyyədə formalaşmış əsas disproporsiyalar milli valyutanın AQP səviyyəsi, ödəniş qabiliyyətli tələbatın artım sürəti ilə qeyri-neft istehsal sahələrinin artım sürətlərinin nisbətləri ilə bağlı idi.

**Azərbaycanda ÜDM-in, illər üzrə, istehlak strukturu (% -lə)**



2000-ci ilin əvvəllərindən etibarən iqtisadi artımda ixrac yönümlü istehsal sahələrin, daha dəqiq, neft-qaz sektoru üzrə istehsalın və ixracın ardıcıl yüksəlişi həlledici əhəmiyyət kəsb etməyə başladı. Belə ki, bu illər ərzində ölkədə ÜDM-in strukturunda ixracın payı, 2000-2003-cü illər ərzində, əvvəlki dövrlə müqayisədə, iki dəfə artaraq, orta hesabla, 41,5%, 2004-2008-ci illər - 62,4%; 2009-2010-cu illər isə-52,4%; 2009-2010-cu illərdə isə-53% təşkil etməyə başladı.

İqtisadi artım siyasətində, bu illər, daxili tələbin və, ilk növbədə, onun strukturunda son istehlak xərclərinin genişlənməsi siyasəti reallaşdırılmağa başlandı. Daxili tələbin genişlənməsi bütün komponentlər üzrə müşahidə olundu:

• ***ev təsərrüfatlarının ödəniş qabiliyyətli tələbatının artırılması*:** bu istiqamətdə həyata keçirilmiş tədbirləri 2 qrupa ayırmaq olar:

a) əhalinin ümumi gəlirləri səviyyəsinin və onun strukturunda əmək haqları, pensiya və müavinətlərin pay çəkisinin artırılması: minimum əmək haqqı səviyyəsinin yüksəldilməsi; büdcə sferasında məşğul əhalinin əmək haqlarının artırılması; iqtisadiyyatda orta əmək haqqı səviyyəsinin yüksəlməsi; əmək pensiyalarının artırılması; pensiyaların inflyasiya səviyyəsinə müvafiq olaraq indeksləşdirilməsi; əhalinin sosial müdafiəsinin gücləndirilməsi - işsiz statuslu vətəndaşlara verilən müavinətlər; ödəniş qabiliyyəti az olan təbəqələrin vergi yükünün azaldılması və müvafiq olaraq, ödəniş qabiliyyəti yüksək təbəqələrin vergi yükünün artırılması və s.;

b) bank sektorunda istehlak tələbatının kreditləşdirilməsinin genişləndirilməsi (banklar vasitəsilə verilən istehlak kreditlərinin həcminin artımı); əhalinin dövlət proqramları üzrə ipoteka kreditləşməsinin genişləndirilməsi.

Ev təsərrüfatlarında istehlak tələbatı səviyyəsinin yüksəlməsinə iqtisadi tənzimləmənin birbaşa təsir göstərən tədbirləri ilə yanaşı, bu səviyyənin yüksəlməsi istiqamətində bir sıra dolayı tədbirlərdə reallaşdırılmağa başladı: özəl sektorda orta əmək haqqı səviyyəsindən aşağı səviyyədə verilən əmək haqqlarının tədricən orta əmək haqqı səviyyəsinə yaxınlaşdırılması üzrə tədbirlər; dövlət və özəl sektorda məşğul əhalinin sayının artırılması üzrə tədbirlər; əhalinin sosial müdafiəsinin gücləndirilməsi - peşə hazırlığı kursları, əmək birjalarının təşkili, əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətini itirmiş vətəndaşların reabilitasiyası, işsizlik səviyyəsinin təbii səviyyədən keçməməsinə nəzarət və s.;

• ***müəssisə və təşkilatların ödəniş qabiliyyətli tələbatının artması:*** bu istiqamətdə reallaşdırılan tədbirlər sırasına aşağıdakılar aiddir:

a) real sektor üzrə gəlirlərin artırılması üzrə tədbirlərin reallaşdırılması: subsidiya və vergi güzəştlərinin tətbiqi; korporativ sektorda xarici və daxili (dövlət investisiyaları, əmanətlərin artırılmasının stimullaşdırılması) investisiyaların artımı; dövlət zəmanətlərinin verilməsi; istehlak sferasında prioritet sahələrə və müəssisələrə dəstək; ünvanlı dövlət sifarişlərinin artımı;

b) maliyyə sektoru üzrə reallaşdırılmış tədbirlər: maliyyə sektorunun inkişafında müvafiq tənzimləmə tədbirlərinin reallaşdırılması;

• ***ödəniş qabiliyyətli tələbatın səmərəsiz istifadəsi istiqamətlərinin məhdudlaşdırılması:*** ödəniş qabiliyyətli tələbatın səviyyəsinin azalmasının qarşısının alınması-inflyasiya üzərində monetar nəzarət; qiymətlərin birbaşa tənzimlənməsi; istehlak bazarı infrastrukturunun inkişafı; ödəniş qabiliyyətli təlbatın Azərbaycan iqtisadiyyatından kənara çıxmasının qarşısının alınması üzrə tədbirlər və s.

Məlumdur ki, açıq iqtisadiyyat şəraitində tələb iqtisadiyyatı modeli əsasında tənzimləmə modellərində əsas səmərəlilik şərti kimi iqtisadiyyatda son istehlak xərclərinin artımına, investisiyaların və daxili istehsalın müvafiq artımının təmin olunması çıxış edir. Başqa sözlə, iqtisadiyyatda əsas makroiqtisadi parametrlərin (inflyasiya, mübadilə məzənnəsi və faiz dərəcəsinin) tənzimlənməsi istiqamətləri, daxili tələbin artımına müvafiq olaraq, investisiyalar və daxili istehsalın artımını təmin etməlidir.

Qeyd olunduğu kimi, 2000-2010-cu illər ərzində daxili tələbin bütün komponentlər üzrə genişlənməsi və istehsal olunmuş ÜDM-in istehlak strukturunun dəyişməsi üzrə formalaşmış meyllər müxtəlif dövrlərdə iqtisadi artımın sürəti və makroiqtisadi proporsiyaların formalaşmasına fərqli təsirlər müəyyənləşdirdi. Belə ki:

• 2000-2003-cü illər ərzində daxili tələbin həm istehlak, həm də ümumi yığım komponentləri üzrə genişlənməsi nəticəsində iqtisadiyyatda ümumilikdə qeyri-neft sektorunun, o cümlədən, qeyri-neft emal sənaye sahələrinin inkişafı sürətlənməyə başladı. Bu meyl, əhalinin alıcılıq qabiliyyətinin tədrici yüksəlişi ilə ÜDM-in sahə strukturunda topdan və pərakəndə ticarət dövriyyəsinin genişlənməsi, istehlak strukturunda son istehlak xərclərinin artımı, müəssisələrdə yığım səviyyəsinin yüksəlməsi ilə iqtisadiyyatda investisiyaların səviyyəsinin artımı və strukturunda qeyri-neft sənaye sahələrinin payının yüksəlməsi ilə əlaqədar idi.

Makroiqtisadi vəziyyətin tənzimlənməsi və aparıcı makroiqtisadi parametrlərin dəyişməsi üzrə formalaşmış meyllər daxili bazarda yerli məhsul istehsalçıların rəqabətqabiliyyətlilik və istehsal imkanlarını əhəmiyyətli dərəcədə genişləndirdi. Belə ki:

- manatın mübadilə məzənnəsinin tədrici ucuzlaşması ilə idxal malları üzrə daxili bazarda yerli məhsul istehsalçıları üçün qiymət şəraitinin yaxşılaşması;

- idxal malları üzrə qiymətlərin dəyişməsində əhəmiyyətli artımın müşahidə olunmaması nəticəsində milli valyuta üzrə aparılmış devalvasiyanın inflyasiya səviyyəsinə əhəmiyyətli təsir etməməsi, reallaşdırılan stabilləşdirmə siyasətinin dövriyyədə olan pul kütləsinin, büdcə gəlirlərinin artımını, faiz dərəcəsinin azalmasını müəyyənləşdirməsi;

- iqtisadiyyatda bir nəfər məşğul əhaliyə düşən ÜDM üzrə əmək məhsuldarlığının artım templərinin orta əmək haqqının artım templərini üstələməsi (başqa sözlə, əmək haqqının məhsulun maya dəyərində kiçik paya malik olması);

- məhsul istehsalının xərc strukturunda tarif və faiz dərəcələrinin kiçik

payı emal sənayesində, iqtisadiyyatın digər sahələri ilə müqayisədə, müqayisəli nisbi rentabellik səviyyəsinin təmin olunmasına, daxili bazarda yerli məhsullar ilə idxal məhsullarının rəqabət aparmasına və istehsalının inkişafına imkan verdi.

• 2004-2008-ci illər ərzində iqtisadiyyatda daxili tələbin genişlənməsinin stimullaşdırılması prosesi, 2000-2003-cü illərlə müqayisədə, Dövlət Neft Fondundan Dövlət büdcəsinə ayrılan transferlərin artımı ilə əlaqədar olaraq əhəmiyyətli dərəcədə sürətləndi. Lakin iqtisadi artım siyasətində müəyyənləşmiş bu meyl ÜDM-in strukturunda fərqli istiqamətlərdə dəyişikliklər formalaşdırdı: a) ölkədə enerji daşıyıcıların istehsal həcmlərinin və ixrac neft və qazının dünya bazarlarında qiymət və tariflərinin sürətli artımı ÜDM-də xalis ixracın çəkisini əhəmiyyətli dərəcədə artırdı. Beləki, əgər 2000-2004-cü illərdə, beynəlxalq neft kontraktlarına müvafiq yatırılmış investisiyalarla əlaqədar, xalis ixracın ÜDM-də payı mənfi qiymətlə xarakterizə olunurdusa, 2005-2008-ci illərdə, bu pay 10%-dən 42,3%-ə qədər yüksəldi; b) neft ÜDM-in sürətli artımı ilə son istehlak xərclərinin əhəmiyyətli artımı, qeyri-neft ÜDM-in də sürətli artımını müəyyənləşdirsə də, onun sahə strukturunda istehsal sahələrinin payının azalması və xidmət sahələrinin payının sürətli artımı meyli formalaşdı; c) ÜDM-in istehlak strukturunda sərəncamda qalan gəlirlərin artımı qeyri-neft investisiyaların səviyyəsinin artımını gücləndirdi, lakin investisiyaların ümumi strukturunda qeyri-neft istehsal sahələrinə investisiyaların payı azaldı və s.

İqtisadi artımda formalaşmış bu meylləri ölkədə makroiqtisadi vəziyyətə olan xarici təzyiqlərin güclənməsi və bu şəraitdə, makroiqtisadi vəziyyətin tənzimlənmə xüsusiyyətləri müəyyənləşdirirdi. 2004-cü ilin əvvəllərindən etibarən ölkəyə idxal inflyasiyasının sürətlənməsi, 2000-2003-cü illər ərzində mövcud olmuş makroiqtisadi sabitliyə ciddi təhlükə yaratmağa başladı. Bir tərəfdən əhalinin alıcılıq qabiliyyəti az olan təbəqəsinin alıcılıq qabiliyyətinin qorunub saxlanılması zərurəti ilə əlaqədar olaraq iqtisadiyyatda minimum əmək haqqı, pensiya və sosial müavinatların səviyyələrinin, sürətlənən inflyasiyaya müvafiq olaraq korporativ və büdcə sektorlarında məşğul olanların əmək haqlarının ardıcıl artımı nəticəsində iqtisadiyyatda orta əmək haqqı səviyyəsinin əhəmiyyətli artımı, digər tərəfdən, ölkədə yoxsulluğun azaldılması və məşğulluğun artırılması üzrə dövlət proqramlarının icrası ilə əlaqədar dövlət büdcəsindən sosial və investisiya yönümlü xərclərin artırılması, neft sektoru ilə bağlı olan istehsal və xidmət sahələrində gəlirlərin artımı, ÜDM-in istehlak strukturunda sərəncamda qalan gəlirlərin artımı iqtisadiyyatda, ümumilikdə, istehlak xərclərinin, investisiyaların artımını, sahibkarlıq fəaliyyətinin genişlənməsini müəyyənləşdirdi. Lakin yaranmış şəraitdə makroiqtisadi vəziyyətin tənzimlənməsi sxemi aparıcı makroiqtisadi parametrlərin dəyişməsi üzrə bir sıra neqativ meylləri formalaşdırdı:

- manatın mübadilə məzənnəsinin tədrici bahalaşması ilə idxal malları üzrə daxili bazarda yerli istehsalçılar üçün qiymət şəraitinin pisləşməsi;

- idxal malları üzrə qiymətlərdə əhəmiyyətli artım və bu səbəbdən,

manatın nominal mübadilə məzənnəsi üzrə aparılmış revalvasiyanın inflyasiya səviyyəsinə əhəmiyyətli təsir etməməsi;

- iqtisadiyyatın qeyri-neft sektoru üzrə əmək məhsuldarlığının artım sürətinin orta əmək haqqının artım sürətindən geri qalması; məhsul istehsalında kommunal tariflərin və faiz dərəcələrinin payının artması, emal sənayesində iqtisadiyyatın digər sahələri ilə müqayisədə nisbi rentabellik səviyyəsinin kəskin azalmasını, daxili bazarda yerli məhsulların idxal məhsulları ilə rəqabət imkanlarını zəiflətdi.

Makroiqtisadi vəziyyətin tənzimlənməsi sxemi islahatlar dövrünün ilk illərindən etibarən tətbiq olunan milli valyutanın nominal mübadilə məzənnəsinin dövriyyədə olan pul kütləsinin (və ya ehtiyat pulların) tənzimlənməsi aləti kimi istifadəsinə əsaslanırdı. Belə ki:

a) valyuta bazarına daxil olan valyuta kütləsinin sürətli artımı ilə milli valyutanın nominal mübadilə məzənnəsinə artan təzyiqlərin zəiflədilməsi zərurəti; b) idxal inflyasiyası və ehtiyat pulların səviyyəsinin artım sürətlərinin zəiflədilməsi zərurəti valyuta bazarına intensiv valyuta müdaxilələrini müəyyənləşdirdi, nəticədə manatın nominal və real effektiv mübadilə məzənnələrinin möhkəmlənməsi başladı.

Beləliklə, əhalinin və müəssisələrin gəlirləri səviyyəsindəki əhəmiyyətli artım, makroiqtisadi vəziyyətin göstərilən tənzimlənmə sxemi nəticəsində qeyri-neft istehsal sahələri üzrə rentabellik səviyyəsinin azalması qeyri-neft sektoru xidmət sahələrində rentabellik səviyyəsinin artımını və bu sahələrə investisiyaların artımını, qeyri-neft investisiyaların istehsalın strukturunda, əhalinin məşğulluq səviyyəsi və strukturunda müvafiq dəyişiklikləri müəyyənləşdirdi. Gəlirlərin yenidən bölgüsü ilə əlaqədar olaraq istehsalın strukturunda müəyyənləşmiş dəyişikliklər nəticədə iqtisadiyyatda ümumilikdə qeyri-neft sektorunun, o cümlədən, qeyri-neft emal sənaye sahələrinin inkişafı sürəti zəifləməyə başladı.

- 2008-2010-cu illər, dünya maliyyə böhranı ilə əlaqədar, 2009-cu ildə ÜDM-in nominal səviyyəsinin azalması, makroiqtisadi tənzimləmə mexanizmlərinin anti-tsiklik istiqamətdə fəaliyyətini müəyyənləşdirdi. Dövlət büdcəsi üzrə öhdəliklərin yerinə yetirilməsi, iqtisadiyyatda geriləmənin qarşısının alınması zərurətləri daxili tələbin genişlənməsinin stimullaşdırılması siyasətinin davam etdirilməsini tələb etdi.

Azərbaycanda iqtisadi artımın nəticələri göstərir ki, ölkədə reallaşdırılan iqtisadi artım modelinin təkmilləşdirilməsi zəruridir. Hal-hazırda istər ölkədaxili, istərsə də ölkə xaricində bir sıra iqtisadçıların mülahizələrinə əsasən problemin həlli istifadə olunan iqtisadi artım modelinin (tələb iqtisadiyyatı modelinin) yenisi ilə - təklif iqtisadiyyatı modeli ilə (iqtisadiyyatda dövlət investisiyalarının özəl investisiyalar ilə əvəzlənməsini, dövlətin iqtisadiyyatın tənzimlənməsində rolunun ardıcıl olaraq məhdudlaşdırılmasını və özəl sektorun, sahibkarlığın genişləndirilməsi ilə) əvəzlənməsini tələb edir. Tələb iqtisadiyyatı ilə təklif iqtisadiyyatı arasında seçim makroiqtisadi siyasətdə uzun illərdir ki, mübahisə və

diskussiya predmetidir. Bu səbəbdən, problem, inkişaf etməkdə olan ölkələr və yeni modernləşdirilən iqtisadiyyatlar üçün xüsusi əhəmiyyət kəsb edir.

**Nəticə**

1. Məlumdur ki, açıq iqtisadiyyat şəraitində tələb iqtisadiyyatı modeli əsasında tənzimləmə modellərində əsas səmərəlilik şərti kimi iqtisadiyyatda son istehlak xərclərinin artımına, investisiyaların və daxili istehsalın müvafiq artımının təmin olunması çıxış edir. Lakin son illərin təcrübəsi göstərir ki, Azərbaycanda iqtisadi tənzimləmə və stabilləşdirmə mexanizmlərinə xas olan çatışmazlıqlar bu şərtlərin yerinə yetirilməsini mümkünsüz edir.

2. Ölkədə istifadə olunan iqtisadi artım modelinin (tələb iqtisadiyyatı modelinin) yenisi ilə - təklif iqtisadiyyatı modeli ilə əvəzlənməsi zəruridir.

## ƏDƏBİYYAT


1. Aliyev I., Haciyev A., Haciyev R. Macroeconomic policy of Azerbaijan – features of formation in the financial crisis: «New Challenges of Economic and Business Development: proceedings of international conference, Riga, 10-12 May, 2012 / University of Latvia» – Riga, 2012, P. 13-20.
2. Hacıyev A., Paşacanov A. Azərbaycanda neft gəlirlərinin idarə olunması və makroiqtisadi tənzimləmənin xüsusiyyətləri // "Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri-İqtisadiyyat seriyası, №3, 2011.


## ОСОБЕННОСТИ ФОРМИРОВАНИЯ ПОЛИТИКИ ЭКОНОМИЧЕСКОГО РОСТА И МАКРОЭКОНОМИЧЕСКИХ ПРОПОРЦИЙ В АЗЕРБАЙДЖАНЕ


**А.Г.ГАДЖИЕВ**


**РЕЗЮМЕ**


В статье анализированы структурные изменения в производстве и в потреблении ВВП, в формировании и в распределении доходов в Азербайджане за последние 15 лет. Результаты анализов показывают, что используемая в настоящее время модель экономического роста - стимулирование роста потребительского спроса, требует совершенствования и, в частности, перехода на модель экономики предложения.



**Ключевые слова:** экономический рост, отраслевая структура ВВП, потребительская структура ВВП, формирование доходов, распределение доходов


## FEATURES OF THE POLICY OF ECONOMIC GROWTH AND MACROECONOMIC PROPORTIONS IN AZERBAIJAN


**A.H.HAJIYEV**


**SUMMARY**


The article analyzes the structural changes in production and consumption of GDP, in the formation and distribution of income in the past 15 years. The results of the analysis show that the model of economic growth currently used in Azerbaijan – stimulation of the growth of consumer demand, requires improving the transition to the economic model of offer.



**Key words:** economic growth, GDP, industrial structure, consumption structure, income generation, income distribution